# DAŞKƏSƏNİN SƏRVƏTİ, TARİXİ İNCİLƏRİ...

**Azərbaycan yer üzünün ən qədim mədəniyyət ocaqlarından biri sayılır. Odlar diyarının ərazisi çox zəngin təbii sərvətə və gözəl mülayim iqlimə malikdir. Bəli, keçmişimizin tarixi həm də bu günümüzün və gələcəyimizin bünövrəsidir. Xalqların bu günü və gələcəyi də onların tarixi üzərində ucalır. Əbəs yerə deməyiblər ki, "keçmişini qoru, gələcəyini qur".**

Tükənməz təbii sərvətlərinə görə tanınan Oğuz yurdu Daşkəsən Cənubi Qafqazın ən dilbər guşələrindən, zəngin sərvəti, qədim inciləri olan bir məkandır. Bu baxımdan, təmiz hava, yaşıllığın bol olması, zəngin fauna, Murovdağ silsiləsi boyunca uzanan meşə massivləri yay aylarında təbiət həvəskarlarını Daşkəsənə cəlb edir. Daşkəsən yaylaqları dəniz səviyyəsindən 2 min metr yüksəkdə olduğu üçün bura bir çox maldar tayfalar köçüb və onlar müxtəlif ətraf hücumlardan qorunmaq üçün siklop tipli qalaçalar tikib. 1959-1960-cı illərdə aparılan arxeoloji qazıntılar zamanı tapılan kurqan tipli dəfn abidələri göstərir ki, bu ərazilər yaylaq kimi yerli əhali tərəfindən uzun illər istifadə edilib.

Rayon zəngin təbii sərvətlərinə görə, Sovet İttifaqı dövründə Daşkəsənin strateji məhsulları olan dəmir filizi, alüminim, kobalt, mərmər istehsalı aparılıb. Tarixi və memarlıq abidələri ilə məşhur olan "Xoşbulaq yaylağı" tunc dövrünə aid olan "Daştəpə" qalaçası, "Çoban daşı", "Molla Abdulla bulağı" qalaçası, dəmir dövrünə aid olan "Nağara dağı" ilə məşhurdur, tarixçilərimizin diqqət mərkəzindədir. Dəniz səviyyəsindən 3361 metr yüksəklikdə yerləşən Qoşqar dağı möhtəşəmliyi ilə diqqəti çəkir. "Yastı qaya" adlanan mənzərəli guşə hər tərəfdən sıx meşəliklə əhatə olunub. "Ləzgi qayası", "Qara inək" mağarası, "Yal yurdu", "Göyçəlilər yurdu", "Dərdər" qalaçaları rayonun qədimiliyindən xəbər verir.

Qabaqtəpə adlanan yaylaq zonası da turizm üçün çox əhəmiyyətlidir. Belə ki, burada 800 kvadratmetr ərazisi olan Alban məbədi kimi respublika əhəmiyyətli tarixi memarlıq, Qabaqtəpə kəndindən 5 km aralıda yerləşən Gəlinqaya təbii abidələri, Qabaqtəpədən 12 km aralıda yerləşən Şəmkir çayı kimi mənzərəli guşəsi, təmiz havası, saf suları ilə məşhur olan bu ərazi buraya gələn qonaqların zövqünü oxşayır. Məhz dünyada məşhur olan Qabaqtəpə boz arı cinsi bu torpağın, bu regionun adı ilə bağlıdır. Dağlara söykənən bu kənd qərb tərəfdən meşələrlə əhatə olunmuşdur. Rayon mərkəzi ilə Qabaqtəpə kəndi ərazisində tarixi körpülər, yaşayış məskənləri, təbii abidələr mövcuddur.

Dilbər guşənin ən qədim incilərindən olan "Gəlin qayası" landşaft abidəsidir və Daşkəsən rayonunun Dəstəfur kəndi yaxınlığında, Əhmədli-Dəstəfur avtomobil yolunun təqribən 3 kilometrliyində sal qaya üzərində yerləşir. Dəniz səviyyəsindən 2364 m hündürlükdədir. Bəzi mənbələrdə abidənin 1139-cu ildə baş vermiş dəhşətli Gəncə zəlzələsindən sonra yarandığına dair məlumatlar var. Təbii abidə dağın sinəsində ətraf mühitlə harmoniyada ucalan iri bir qaya parçasıdır. Bu barədə yaranan əfsanələr onun "Gəlin qayası" adlandırılmasına səbəb olmuşdur. "Gəlin qayası" insanların yaddaşında mərdlik, namus və fədakarlıq rəmzi kimi yaşayır.

Unikal təbiətə malik, füsunkar gözəlliyi göz qamaşdıran, oksigenlə bol Xoşbulaq yaylağı ta qədimdən Gəncəbasarın istirahət zonası hesab olunur. Hətta paytaxdan buraya böyük həvəslə dincəlməyə gəlirlər. Yaylağın ərazisi keçmişdə Yelizavetpol qəzasına daxil olan Əhmədli, Alabaşlı, Kamanlı, Hacallı, Qarabağlar, Lək, Şadılı və başqa kəndlərin yaylaq yeri olmuşdur. Arxeoloji qazıntılar zamanı rayon ərazisində dəniz səviyyəsindən 2000 metr yüksəklikdə - Xoşbulaq yaylağında bölgədə qeydə alınmış kurqan tipli arxeoloji abidə tədqiq edilib. Daş qutudan 6 ədəd saxsı qab nümunəsi, bir ədəd tunc kəmər, bir ədəd dəmirdən hazırlanmış xəncər və bir insan skeletinin qalıqları aşkar edilib və Xoşbulaq yaylağında 3 min il əvvələ aid dini ibadətgah yeri də tapılmışdır. Kənd Qoşqarçayın sahilində, Şahdağ silsiləsinin ətəyində, rayon mərkəzindən təqribən 7 km məsafədə yerləşir.










2006-cı il iyulun 13-də ölkə Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikası Daşkəsən rayonunun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair tədbirlər planı" barədə imzaladığı Sərəncam bu dağlar diyarı Daşkəsənin bu gününə və sabahına dövlət qayğısının parlaq nümunəsidir. Ölkə başçısının təşəbbüsü ilə bu ulu dağların tükənməz sərvəti əsasında ölkədə güclü polad kompleksinin yaradılması qərara alındı. 2008-ci ilin mart ayında dövlət başçısı Daşkəsən xammalına əsaslanaraq Gəncədə polad kompleksinin və "Detal" alüminium zavodunun təməlqoyma mərasimində iştirak etdi. Dövlət başçısı cənab İlham Əliyev bildirmişdir: "Rayonunuzun çox böyük imkanları, potensialı var. Burada çox gözəl yerlər var, təbiət çox gözəldir, çox zəngindir. Əminəm ki, bu yol tikiləndən sonra burada turizmin inkişafı daha da sürətlə gedəcəkdir. Rayonun infrastrukturuna sərmayələr qoyulacaq və beləliklə, Daşkəsən rayonu sürətlə inkişaf edəcəkdir!". Bu, qeyri-neft sektorunun inkişafı yolunda atılan addımlardan biri oldu. Beləliklə, dağlar diyarının yeni həyatı başlandı. Qısa müddət ərzində rayonun tarixində əlamətdar hadisə baş verdi. Gəncə-Daşkəsən-Xoşbulaq yolu çəkildi və uzunluğu 47,4 kilometrdir. Eyni zamanda yeddi min əhalinin yaşadığı 9 yaşayış məntəqəsini birləşdirən Daşkəsən-Xoşbulaq-Astaf avtomobil yolu əsaslı təmir olundu. Bu, təkcə daşkəsənlilərə yox, bütövlükdə qərb bölgəsi üçün Xoşbulaq yaylağına istirahətə gələnlərə dəyərli töhfə oldu. Milli tərkibi azərbaycanlılardan ibarət olan kəndə asfalt döşənmiş, kəndarası yollar nizama salınmış, qazı və suyu daimidir. Həmçinin kənd ərazisində müasir olimpiya mərkəzi də fəaliyyət göstərir ki, turistlərin bu məkandan da istifadə etmək imkanları var. Əhalinin əsas məşğuliyyətini əkinçilik və heyvandarlıq təşkil edir. Yaylaq mövsümündə xoşbulaqlılar evlərini kirayə verməklə, gələn qonaqlara qatıq, pendir, xama, təndir çörəyi satmaqla gəlir əldə edirlər.

Azərbaycan ərazisində ev turizminin mövcud olduğu bölgələri xarakterizə etsək, Daşkəsən rayonu həm hava və suyu, həm də qiymət baxımından çox sərfəlidir. Ərazidə hotel-restoran tipli ailəvi istirahət məkanları da mövcuddur. Bəli, ölkə başçısının diqqət və qayğısı ilə burada əsl yaylaq-istirahət zonası yaradılıb. Xoşbulağın mərkəzindəki gənclər-idman istirahət bazası onların sevimli oylağına çevrilmişdir. Sakinlərin dincəldiyi ecazkar Xoşbulaq gölünün kənarında diqqətəlayiq yaşıl zona yaradılmışdır.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

Respublika 2025.- 6 may (№91).- S.11.